

*Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Rusiyanın Sankt-Peterburq Dövlət İqtisad Universiteti ilə birgə COP 29-a həsr olunan "Yaşıl iqtisadiyyat: Elm, təhsil, texnologiya və innovasiya" mövzusunda beynəlxalq elmi-praktiki konfrans öz işinə başlayıb.*





# UNEC-də "Yaşıl iqtisadiyyat: Elm, təhsil, texnologiya və innovasiya" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb

Bu barədə verilən məlumata görə, "Yaşıl dünya naminə həmrəylik ili" və "Yaşıl UNEC" ili çərçivəsində təşkil olunan konfransdan öncə iştirakçılar UNEC Dizayn Məktəbinin tələbələrinin ekologiyaya həsr etdikləri rəsm sərgisi, eləcə də ekoloji təmiz parçalardan hazırlanmış geyim nümunələri ilə tanış olublar. "Qida mühəndisliyi" ixtisasının tələbələrinin UNEC-in Qida təhlükəsizliyi laboratoriyasında hazırladıqları ekoloji təmiz qidaları dequstasiya ediblər və "yaşıl iqtisadiyyat"la bağlı kitab sərgisini izləyiblər.



Konfransın açılışında çıxış edən **UNEC-in rektoru, professor Ədalət Muradov** universitetdə COP29-a həsr olunan silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb, konfransın bu istiqamətdə növbəti addım olduğunu deyib. UNEC-in strateji hədəflərindən birinin 2030-cu ilədək "yaşıl universitet"ə çevrilmək olduğunu bildirən rektor, QS Dayanıqlılıq Reytinqi 2024 üzrə UNEC-in ölkədə lider olduğunu diqqətə çatdırıb. UNEC alimlərinin dayanıqlı inkişaf məqsədləri üzrə 400-dən çox məqaləsinin çap edildiyini, bu göstəricinin "Yaşıl dünya naminə həmrəylik ili" üçün önəmli töhfə olduğunu vurğulayıb.

Tədbirdə Sankt-Peterburq Dövlət İqtisad Universitetinin rektoru, professor İqor Maksimsevin konfrans iştirakçılarına videomüraciəti nümayiş olunub. Rektor müraciətində konfransın əhəmiyyətindən söz açaraq, tədbirdə "yaşıl iqtisadiyyat"la bağlı qlobal dünyanı maraqlandıran məsələlərə həsr olunan ciddi müzakirələrin aparılacağını və uğurlu nəticələrin əldə olunacağını bildirərək, konfransın işinə uğurlar arzulayıb.

Sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, UNEC dosenti Sadiq Qurbanov çıxış edərək, ekoloji mühitin yaxşılaşdırılmasının dünyaya verdiyi töhfələrdən və Azərbaycanın bu prosesdə rolundan söz açıb, ölkəmizin bəşəriyyət üçün atdığı addımlarının COP29-dan gözləntiləri labüd etdiyini vurğulayıb. Komitə sədri ekoloji maarifləndirmə, təkrar istehsal, yeni texnologiyaların inkişafı və elm mərkəzlərinin yaradılmasının vacibliyindən danışıb, bugünkü konfransın elmi-praktiki nəticələrinin bu istiqamətdə böyük töhfələr verəcəyindən əminliyini bildirib.

Konfransda iştirak edən Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini prof. Lütfihak Alpkan "yaşıl transformasiya"ya ədalətli keçid barədə maraqlı təqdimatla çıxış edib. Nazir müavini "yaşıl transformasiya"nı şərtləndirən amillər, iqlim dəyişmələri, iqlim böhranının səbəb və nəticələri, istixana qazlarının emissiyaları, Türkiyənin ekologiyaya verdiyi töhfələrlə bağlı statistik məlumatları konfrans iştirakçıları ilə bölüşüb.

Sonra millət vəkili, akademik Ziyad Səmədzadə, Rusiyanın Əməkdar elm xadimi Georgiy Baqıyev Paşa Holdinqin əməkdaşı Fuad İbrahimov



"yaşıl iqtisadiyyat"a keçid, ekoloji və iqtisadi böhranlara qarşı antiböhran modeli, ekoloji mallar bazarında innovativ marketinq konsepsiyasının işlənib hazırlanması mövzularında çıxış ediblər.

UNEC-in Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, UNEC Avrasiya Beynəlxalq Tədqiqat mərkəzinin rəhbəri, professor Zahid Məmmədovun moderatorluğu ilə keçirilən konfrans mövzu ilə bağlı panel müzakirələrlə davam edib.

Beynəlxalq konfrans oktyabrın 4-də öz işini başa vuracaq.

**M.MUSTAFA,**
**"Respublika".**